MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

*Dayanıqlı inkişaf, cild 3, № 1, 2023*

UOT 330.34;330.35

# MÖVCUD RESURSLARDAN SƏMƏRƏLİ İSTİFADƏNİN MİLLİ İQTİSADİYYATLARIN İNKİŞAFINDA ROLU

**Arif Məmmədhəsən oğlu Tağıyev**
Mingəçevir Dövlət Universiteti
arif.taqiev@mdu.edu.az

***Xülasə:*** *Məqalə müasir dövrümüzün aktual problemlərindən biri olan və daim qıtlığı hiss olunan iqtisadi resurslardan səmərəli istifadə olunması məsələlərinə həsr edilmişdir. Məqalənin birinci hissəsində resurs potensialı anlayışına geniş şərh verilmiş və onun strukturu əks olunmuşdur. İkinci hissədə isə mövcud resurs potensialından səmərəli istifadə yolları və milli iqtisadiyyatın inkişafında onun əhəmiyyəti, araşdirmaların nəticələri haqqında müəllifin fikirləri öz əksini tapmışdır.*

***Açar sözlər:*** *resurs potensialı, iqtisadi resurslar, təbii resurslar, səmərəlilik, milli iqtisadiyyat, alternativ resurslar*

## Giriş

Milli iqtisadiyyatın inkişafının xarakterizə edən əsas amillərdən biri ölkənin məcmu resurs potensialı və mövcud resurs potensialından, o cümlədən həm təbii, həm də iqtisadi resurs potensialından səmərəli istifadə edilməsidir. İqtisadi artımın intensiv inkişaf tipinə uyğun bu prinsipə üstünlük verilməsi milli iqtisadiyyatın inkişafının proqnozlaşdırılmasının əsasını təşkil etməlidir. Burada ilk növbədə təbii, xususilə tukənən resurslardan qənaətlə və son dərəcədə səmərəli istifadə edilməsinə üstünlük verilməlidir. Lakin, eyni zamanda nəzərə almaq lazımdır ki, bütün resurslara eyni zamanda sərt qənaət rejiminin tətbiq edilməsi qeyri mümkündür və ya əks nəticə verə bilər. Hər hansı bir resurs növünə qənaət edilməsi, eyni zamanda digər resurslardan daha intensiv istifadə etməyə sövq edə bilər ki, bu da iqtisadi baxımdan səmərəsiz hesab edilir. Deməli resurs potensialından istifadədə qənaət rejimi o vaxt faydalı hesab edilə bilər ki, alternativ resurslar daha ucuz xərclər hesabına başa gəlir və ya xərc tələb etməyən resurslardan istifadə etmək mümkündür (məsələn, istilik enerjisininin külək və ya günəş enerjisi ilə əvəz edilməsi).

## 1. Resurs potensialı və iqtisadi inkişafda onun rolu

Resurslar anlayışı kifayət qədər geniş məna ifadə edir və öz tərkibində təbii və iqtisadi resursları birləşdirir. İstehsal resursları təbii resurslardan fərqli olaraq daha çox insan əməyinin nəticəsidir.

Beləliklə, resurs potensialı olduqca geniş bir anlam olmaqla özündə müxtəlif struktura malik bir çox iqtisadi və istehsal amillərini birləşdirir. Müasir qlobal iqtisadi inkişaf mərhələsində ölkələrin resurs potensialının strukturunda ilk yerlərə ölkənin mövcud istehsal fondları, elmi texniki potensialı, təhsilli, savadlı və iş qabiliyyəti yüksək insan potensialı, sahibkarlıq bacarığı, yeni informasiya texnologiyaları çıxmaqdadır. Odur ki, milli iqtisadiyyatın resurs potensialının strukturunun təhlili, təsnifləşdirilməsi, inkişafının proqnozlaşdırılması xususi əhəmiyyət kəsb edir. Bu mənada ölkənin istehsal resurs potensialını aşağıdakı formada təşnifləşdirmək olar:

- təbii resurslar (yeraltı və yerüstü təbii sərvətlər) və coğrafi amillər;
- kapital resursləri (istehsal vasitələri, real kapital, maliyyə resursları);
- əmək resursları (insan resursları, onların əmək və iş qabiliyyəti);
- elmi-texniki tərəqqi, yeni texnologiyalar və elmi resurslar;
- sahibkarlıq qabiliyyəti (istehsalı təşkil etmək, idarə etmək qabiliyyəti);
- istehsalın infrastruktur resursləri (energetika, rabitə, nəqliyyat, yol təsərrüfatı və s.). [2]

Faktiki olaraq, bu resursların hər biri milli iqtisadiyyatın inkişafında özünəməxsus rol oynasa da, onlar funksional baxımdan fərqli təsir gücünə malikdir.

**Təbii resurslar və coğrafi amillər**

Hər bir milli iqtisadiyyatın və eləcə də dünya iqtisadiyyatının inkişafı iqtisadi ehtiyatlardan, o cümlədən, təbii ehtiyatlardan – istehsal amillərindən asılıdır. Təbii resurslar ölkənin resurs potensialının tərkibində əsas yerlərdən birini təşkil edir. Onlardan istehsal prosesində əmək cisimləri kimi istifadə edilir. Lakin onlar o vaxt istehsal resursları hesab edilirlər ki, istehsal prosesində onlardan istifadəyə ehtiyac yaransın. Qeyd edək ki, ayrı-ayrı ölkələrdə təbii sərvətlər üzərində mülkiyyət hüquqları müxtəlifdir. Mülkiyyət hüququ ilə bağlı müxtəlif münasibətlərin əsas səbəbi dövlətlərin sosial-iqtisadi sisteminin hansı prinsiplər əsasında qurulmasıdır. Lakin bir qayda olaraq, təbii sərvətlər üzərində mülkiyyət hüququ konstitusiya və digər hüquqi aktlarla təsbit olunur və əsasən dövlətə məxsusdur. Bu, əsasən, təbii ehtiyatlardan əldə olunan gəlirlərin ayrı-ayrı fərdlərin deyil, ümumilikdə xalqın mənafeyinin təmin olunmasına, başqa sözlə, bütün vətəndaşlara bu sərvətdən pay çatmasını reallaşdırmaq məqsədi daşıyır.

Öz xüsusiyyətlərinə görə təbii resurslar iki yerə bölunur: bərpa olunmayan təbii resurslar və bərpa olunan təbii resurslar.

- Bərpa olunmayan təbii resurslara butun növlərdən olan mineral resurslar və torpaq aiddir. Onların yenidən əmələ gəlməsi faktiki olaraq ya mümükün deyil və ya bunun ucun uzun minilliklər lazımdır.
- Bərpa olunan resurslara bitki örtüyü (meşə resursları) və heyvanat aləmi daxildir.

Təbii resurslar içərisində milli iqtisadiyyat uçun daha əhəmiyyətlisi enerji resursları sayılır ki, onları da şərti olaraq iki yerə bölmək olar:

- yanacaq resursları (neft, qaz, kömür, torf və s.);
- qeyri-yanacaq resursları (hidroenerji, atom, günəş, külək enerjisi və sair).

Təbii resurslar içərisində yeraltı qazıntılar, filizlər, qara və əlvan metallurgiya məmulatları, qiymətli daş-qaşlar və digərləri xususi yer tutur və milli iqtisadiyyatın inkişafı və guclənməsində əsas amillərdən birinə çevrilir. [2]

Ölkənin coğrafi mövqeyi, coğrafi yerləşməsi, iqlim şəraiti kimi amilləri də iqtisadi inkişafa təsir göstərən mühüm resurs kimi qəbul etmək olar.

**Kapital resursları** ölkənin milli iqtisadiyyatın inkişafında xüsusi yer tutan amillərdən biri hesab edilir. Mahiyyət etibarı ilə ölkənin malik olduğu kapital resurslarını iki qrupa ayırmaq olar:

1. Artıq və reallaşmış, istehsal vasitəsinə çevrilmiş kapital;
2. Maliyyə, pul, qızıl ehtiyatları, qiymətli kağızlar formasında olan kapital.

Artıq reallaşmış, istehsal vasitəsinə çevrilmiş kapital ölkənin əsas fondlarını təşkil etməklə milli dəyərin yaradılmasında birbaşa iştirak edir.

Əsas fondlar və ya istehsal vasitələri ölkənin milli sərvətinin və istehsal resurslarının ən mühüm hissəsini təşkil edir. Əsas fondlara ölkədə mövcud olan binalar, tikintilər, qurğular, maşınlar və avadanlıqlar (iş, güc və informasiya avadanlıqları), nəqliyyat vasitələri, iş heyvanı və məhsuldar heyvanlar və əsas fondların digər növləri aiddir. Əsas fondların tərkibində bütün mülkiyyət formalarından olan müəssisə və təşkilatların əsas fondları, həmçinin fiziki şəxslərin mülkiyyətində olan nemətlər (yaşayış evləri, şəxsi tikililər, təsərrüfat tikililəri, çoxillik bitkilər, iş heyvanları və məhsuldar heyvanlar) nəzərə alınır.

**Maliyyə resursları** – fond formasında dövlətin əlində olan məqsədli təyinata malik pul vəsaitləri və maliyyə münasibətlərinin maddi daşıyıcısıdır. Maliyyə resurslarının həcmi ölkənin sosial-iqtisadi inkişafının mühüm makroiqtisadi göstəricilərindən biri olmaqla onun maliyyə təminatını yerinə yetirir. Ölkənin maliyyə resursları dövlət və qeyri-dövlət maliyyə resurslarının məcmusunu təşkil etməklə dövlətə çox geniş sosial-iqtisadi funksiyaları həyata keçirməyə imkan verir. Burada dövlət maliyyəsinin rolu xüsusilə önəmlidir. Məlum olduğu kimi, dövlət maliyyəsinin əsasını Dövlət büdcəsi və qeyri büdcə və ya ehtiyat fondları təşkil edir. Burada Dövlət büdcəsi və onun həcmi xüsusilə əhəmiyyətlidir, çünki iqtisadi proseslərdə büdcə xərcləri daha aktiv iştirak edir.

Maliyyə resurslarının əsas funksiyalarından biri ondan ibarətdir ki, onun vasitəsilə iqtisadiyyatda olan bütün maliyyə münasibətləri nəzərdən keçirilir və bunun əsasında maliyyə vəsaitlərinin milli iqtisadiyyatın inkişafına təsiri və bu təsirin artırılması yolları müəyyən olunur. Maliyyə resursları iqtisadiyyatın inkişaf etdirilməsinə, iqtisadi artıma nail olunmasına, Ümumi Daxili Məhsulun formalaşmasına təsir göstərməklə bərabər eyni zamanda, ölkə iqtisadiyyatının ümumi maliyyə vəziyyətini xarakterizə edir.

Maliyyə resurslarının həcmi istehsalın inkişafından asılıdır. Belə ki, maliyyə resursları istehsal prosesində yaranır və bölgü prosesi vasitəsilə təsdiqini tapır. Maliyyə resurslarından dügün və optimal istifadə edilməsi sonda maliyyə ehtiyatlarının həcmini artırır, bu isə, cəmiyyət üzvlərinin tələbatının yüksək səviyyədə ödənilməsinə və istehsalın fasiləsiz təşkilinə təsir göstərir.

Maliyyə resurslarının iqtisadi inkişaf baxımından ən aktiv hissəsi investisiya resursları hesab edilir. İnvestisiya ehtiyatları iqtisadi məzmununa görə əsas və dövriyyə kapitalının yaradılması, genişləndirilməsi, yenidən qurulması və texniki cəhətdən təchiz olunmasına sərf edilən xərcləri ifadə edir. Ölkənin malik olduğu maliyyə resursları, ölkənin pul, valyuta, qızıl ehtiyatlarından, dövlət budcəsinin və qeyri budcə fondlarınım gəlirlərindən ibarət olmaqla dövlətin sosial-iqtisadi siyasətinin reallaşdırılmasına xidmət edir.

**Əmək resursları** ölkənin resurs potensialı sitemində xususi yer tutur. Əmək resursları ölkənin insan resurslarının tərkib hissəsidir. Ölkənin insan resurslarının keyfiyyəti, üstünlüyü onun intellektual potensialı ilə bağlıdır. İntellektual potensial insanların təhsili, mədəniyyəti, biliyi, yaradıcılıq qabiliyyəti və digər kefiyyət gostəriciləri ilə ölçülür. Bu göstəricilər nə qədər yüksək olarsa əmək resurslarının keyfiyyəti və effektliliyi də bir o qədər yüksək olar. [3]

**Elmi-texniki tərəqqinin** səviyyəsi milli iqtisadiyyatın inkişafına güclü təsir göstərən amillərdən biri hesab edilir. Son dövrlərdə elmi-texniki tərəqqinin iqtisadi potensial kimi rolu olduqca yuksəlmişdir. Artıq dövlətin innovasiya siyasəti onun iqtisadi inkişaf siyasətinin və strategiyasının vacib sahələrindən birinə cevrilmişdir. Elmi-texniki tərəqqinin tətbiqi daha çox istehsal prosesində baş verir və özunu istehsalın yeni texnologiyalar və texniki maliyyətlərin tətbiqində tapır. [3]

**Sahibkarlıq qabiliyyəti və idarəetmə bacarığı** müasir bazar iqtsadiyyatı şəraitində ən mühüm iqtisadi resurslardan biri kimi qiymətləndirilir. Buraya təkcə mülkiyyət hüququna malik olan sahibkarlar deyil, eyni zamanda ölkə iqtisadiyyatını, onun ünsürləri olan istehsal və xidmət sferasının vahidlərinin idarə edilməsi ilə məşqul olan menecerlərin, mutəxəssislərin idarəetmə qabiliyyətləri də daxildir. Müasir dövrümüzün bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrin təcrubəsi də göstərir ki, onların əldə etdiyi nailiyyətlərin kökündə daha çox sahibkarlıq potensialından istifadənin effektlivliyi dayanır.

**İstehsalın infrastruktur resursları** geniş struktura malik olmaqla istehsala xidmət edən bütün sahələri əhatə edir. Buraya energetika, rabitə və informasiya-kommunikasiya texnologiyalarını, avtomobil, dəmir yolu, hava və dəniz nəqliyyatını, yol təsərrüfatını, boru-kəmər nəqli sistemini, kommunikasiya ötürücü qurğularını, logistika sistemi kimi geniş sahələri aid etmək olar. İqtisadi inkişafın əsas amillərindən biri kimi infrastruktur-xidmət sektoru bəzi dünya ölkələrinin iqtisadiyyatında, ÜDM yaradılmasında kifayət qədər böyük xüsusi çəkiyə malikdir. Burada rabitə və informasiya-kommunikasiya xidmətlərini, bütün növ nəqliyyat sistemləri vasitəsi ilə yükdaşımaları, liman-logistika xidmətlərini və digər bu kimi xidmət sahələrini aid etmək olar.

**2. İqtisadi resurslara qənaət və səmərəli istifadə problemləri**

İqtisadi resurslar içərisində daha çox qənaət tələb edən resurslara təbii (tükənən) və əmək resurslarını aid etmək olar. Qənaət rejimi ilk növbədə resurslardan istifadənin səmərəliliyinin artırılması hesabına həyata keçirilməsi (səmərəlilik əmsalının artırılması, enerji qənaəti, istehsal tullantılarından tam istifadə edilməsi, resursların əvəzləndirilməsi və s.) daha məqbul hesab edilir.

İqtisad elmi iqtisadi resurslardan istifadənin səmərəliyinin qiymətləmdirilməsinin göstəricilər sistemini yaratmışdır. Məsələn əmək resurslarından istifadənin səmərəlilik göstəricisi ilk növbədə məşğulluq səviyyəsi və əmək məhsuldarlığıdır. Dövlətin məşğulluq siyasəti əmək sferasında geniş fəaliyyət dairəsini əhatə edir, özündə məşğulluğun tənzimlənməsi və işsizliyin aradan qaldırılması məsələlərini birləşdirir. Məşğulluq siyasətinin əsas məqsədi ölkənin əmək resurslarından daha səmərəli istifadə edilməsidir. Məşğulluq siyasəti ancaq əhalinin işlə təmin olunması deyil, daha çox mövcud işçi qüvvəsindən əmək bazarının tələbatının kəmiyyət və keyfiyyət baxımından maksimum ödənilməsini, əmək bazarının tələbatına uyğun işçi qüvvəsinin hazırlanmasını, əmək bazarının tələbatının proqnozlaşdırılması və digər strateji məsələlərin, məsələn, əhali və əmək resursları artımının öyrənməsini, tədqiq edilməsini və tənzimlənməsini əhatə edir.

Təbii resurslaran istifadənin səmərəliyi material tutumu (ÜDM-n bir manatına duşən maddi xərclər) və yaxud həcminin natural ifadəsi, yəni ÜDM-ni bir manatına düşən maddi resurs sərfi (enerji tutumu, material tutumu və sair ) ilə müəyyənləşdirilir.

Beləliklə, milli resurs potensialından istifadə iqtisadi inkişafın və artımın intensiv və ekstensiv tipinin məqbul sintezi əsasında həyata keçirilməlidir.

Resurs potensialı, onun strukturu və tərkib ünsürləri arasındakı optimal nisbət iqtisadi fəaliyyətə həlledici təsir göstərir. Bütün iqtisadi ehtiyatlar ümumi bir xassəyə malikdir. Bu da ondan ibarətdir ki, onların hamısı məhdud miqdardadır. Başqa sözlə, yararlı torpaqların, faydalı qazıntı ehtiyatların miqdarı, iş qüvvəsinin sayı və s. ehtiyatlar müəyyən hədd daxilindədir. Resurs potensialının tərkibində elə ünsürlər də var ki, onların miqdarı məhdud deyil. Məsələn, külək, günəş və su ehtiyatları (daha çox duzlu su) belə resurslardandır və onlardan istifadə imkanları getdikcə artır.

İqtisadi fəaliyyət üçün bütün resursların mövcudluğu zəruridir. Lakin qeyri-məhdud miqdarda resurslardan səmərəli istifadə edilməsi probleminin və resurslara qənaət etmək imkanı verən iqtisadi inkişaf tipinin aktuallığını qeyd etmək lazımdır. Bundan başqa, hər hansı bir resurs özünün mövcudluğu, yaxud da çatışmazlığı onların spesifik xüsusiyyətləri ilə əlaqədar deyil. Bu, cəmiyyətin tələbatının daim artması və dəyişməsi ilə bağlı inkişaf etməkdə olan iqtisadi sistemlərin xüsusiyyətlərindən irəli gəlir.

İstər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə yanacaq-enerji resurslarına tələbat xüsusilə sürətlə artır. Yanacaq-enerji resursları texnoloji tərəqqinin, elmtutumlu istehsalın inkişaf etdirilməsinin əsası olmaqla, iqtisadi artımın keyfiyyətinə birbaşa təsir göstərirlər. Hər bir resurs növünün özünəməxsus xüsusiyyəti vardır. Lakin mübahisəsiz demək olar ki, energetika resursları resurs potensialının əsasını təşkil edir. Odur ki, resurslara qənaət olunması problemi bir qayda olaraq enerjiyə qənaət edilməsinin timsalında nəzərdən keçirilir.

Enerjiyə qənaət edilməsi bütün dünyada ən aktual məsələlərdən biridir. Bu, Azərbaycan üçün xüsusilə böyük əhəmiyyət kəsb edir. Enerjiyə qənaət edilməsi yanacaqdan və enerjidən istifadə edənlər, enerji resursları istehsalçıları və dövlət, bir sözlə, bütün strukturlar və bazar subyektləri üçün əhəmiyyətlidir. Bu məqsədlə xüsusi proqramlar hazırlanır, onların həyata keçirilməsi üçün konkret işlər görülür.

Enerjiyə qənaət olunmasının başlıca istiqaməti elmi-texniki tərəqqi ilə əlaqədardır. Bu, həm yanacaq hasilatı və enerji resursları istehsalı, həm də yanacaq-energetika resurslarının istifadə olunduğu sahələrdə özünü göstərir. Buna onların yerin təkindən kompleks şəkildə tam olaraq çıxarılması misal ola bilər. Faydalı qazıntı yataqlarının çoxunda əsas komponentlə yanaşı, həm də bir sıra əlavə elementlər mövcud olur. Bu isə o deməkdir ki, enerjinin çevrilməsi və son istifadəsi üzrə faydalı iş əmsalının yüksəldilməsi əlavə xərc çəkmədən səmərə əldə edilməsinə imkan verir. [2]

Təbii sərvətlərdən, xüsusilə yanacaq-enerji sərvətlərindən səmərəli istifadə edilməsi istiqamətində atılan addımlardan biri də Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması" üzrə Dövlət Proqramının təsdiq edilməsidir. Bu Proqramın qəbul olunmasının əsas məqsədi ölkənin təbii potensialından istifadə etməklə bərpa olunan və ekoloji cəhətdən təmiz mənbələrdən enerji istehsalını genişləndirməkdən, karbohidrogen enerji resurslarından daha səmərəli istifadə edilməsindən və enerji təhlükəsizliyini təmin etməkdən ibarətdir. [1]

Bu istiqamətdə yeni layihələrin işlənilməsi ölkəmizin elektroenergetika sahəsinin gələcək inkişafına, dövlətin enerji siyasətinin uğurla həyata keçirilməsinə, ekoloji tarazlığın qorunmasına öz təsirini göstərmişdir. Belə layihələrdən biri 38 hektar ərazidə inşa olunan külək, günəş və bioqaz stansiyaları ilə təchiz edilmiş Qobustan Eksperimental Poliqonu və tədris mərkəzinin istifadəyə verilməsidir.

Elmi-texniki tərəqqinin nailiyyətləri aztullantılı və tullantısız istehsalatların yaradılması sahəsində təbii resurslardan səmərəli istifadə olunması üçün böyük imkanlar açır

Ölkənin təsərrüfat fəaliyyətinə və onun iqtisadi durumuna daha çox istehsal və iqtisadi resusrların varlığı, onların strukturu, optimal istifadəsi təsir edir. İstehsal resurslarının əsas xüsusiyyətlərindən biri isə onların tükənən olub-olmamasıdır. Müxtəlif iqtisadi inkişaf proseslərində istehsal resurslarının tərkibinin dəyişməsi baş verir. Yəni get-gedə iqtisadiyyatın son tələbi müəyyənləşdirilir, əmtəə və məhsullara tələbat, onların istehsal edilməsi imkanları müəyyən edilir. Nəticədə tələbin inkişafının proqnozlaşdırılması və təhlili, onun əsas məqsədlərin təyin etməyi, lazımi ehtiyatların müəyyənləşdirilməsini, müqayisə edilməsini və lazım olduqda bir-biri ilə əvəz edilməsini tələb edir. Ehtiyat potensialının qiymətləndirilməsi onun istifadəsinin səmərəliliyinin təhlilinə əsaslanır. Ona görə də ehtiyat potensialının tərkibində baş verən dəyişikliyin araşdırılması milli iqtisadiyyatın hansı imkanlar əsasında formalaşmasını dəqiqləşdirməyə şərait yaradır.

Resurs potensialına qənaət edilməsinin əsas yollarından biri də elmi-texniki tərəqqi (ETT) və yeni texnologiyaların tətbiqidir. ETT-nin iqtisadi resurslara daxil edilməsi ona əsaslanır ki, elmi-texniki tərəqqinin nailiyyətlərindən və yeni texnologiyalardan istifadə olunmaqla təbii resursların süni əvəzediciləri hazırlanır və təsərrüfat dövriyyəsinə cəlb edilir. Eyni zamanda ETT iqtisadi inkişafa güclü təsir göstərir. İntensiv, davamlı və sabit inkişaf edən iqtisadiyyat üçün iqtisadi artım daha çox elmi-texniki tərəqqi və istehsala yeni texnologiyanın tətbiqi əsasında təmin edilə bilər. Ümumiyyətlə, ETT bəşəriyyətin gələcək inkişafı üçün əsas istehsal resurslarından birinə çevrilmişdir.

**Nəticə**

Araşdırmalar göstərir ki, hazırda hər bir ölkə öz iqtisadiyyatını ehtiyat potensialından qənaətlə istifadə etmə üzərində qurur. Lakin əvvəllər də qeyd etdiyimiz kimi eyni vaxtda həm əmək, həm material, həm də kapital resurslarına qənaət etmək mümkün deyil. Çünki iqtisadi artımın həm ekstensiv, həm də intensiv tiplərinin qarşılıqlı əlaqələri mövcuddur. Yəni bir resursun qənaətinə digərindən daha çox istifadə nəticəsində nail olmaq mümkündür. Burada resurslardan istifadənin səmərəliliyini qiymətləndirilməsi məsələsi ortaya çıxır. Bu mənada resurslara qənaət edilməsi siyasətinin reallaşdırılması olduqca çətindir.

Deməli, bütün iqtisadi potensiala, iqtisadi resurslara eyni zamanda qənaət etmək mümkün deyil və bu halda qənaət rejimi daha çox səmərəlilik rejimi ilə əvəz olunmalıdır. Yəni ölkənin məcmu iqtisadi potensialından daha səmərəli istifadə edilməli və səmərəlilik effektinə üstünlük verilməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı /Azərbaycan Respublikası Prezidentinin 21 oktyabr 2004-cü il tarixli Sərəncamı
2. Musayeva, C.Q. Azərbaycan iqtisadiyyatı. Ali məktəblər üçün dərs vəsaiti. / Musayeva, C.Q., Tağıyev A.M. - Bakı:"Avropa" nəşriyyatı. -2018, -420 s.
3. Əyyubov, V.S. Milli iqtisadiyyatın tənzimlənməsi. Dərs vəsaiti. / Əyyubov V.S., Tağıyev A.M. – Bakı: "Avropa" nəşriyyatı, -2014.-350 s.
4. www.azstat.gov.az

## EFFECTIVE USE OF AVAILABLE RESOURCES NATIONAL ROLE IN THE DEVELOPMENT OF ECONOMIES

**A.Taghiyev**
Mingachevir State University

***Abstract:*** *The article is dedicated to the issues of efficient use of economic resources, which are one of the urgent problems of our modern era and are constantly in short supply. In the first part of the article, a broad interpretation of the concept of resource potential was given and its structure was reflected. In the second part, the author's opinions about the effective use of the existing resource potential and its importance in the development of the national economy, as well as the results of the research, are reflected.*

***Keywords:*** *resource potential, economic resources, natural resources, efficiency, national economy, alternative resources*

## ЗНАЧЕНИЯ ЭФФЕКТИВНОГО ИСПОЛЬЗОВАНИЕ ИМЕЮЩИХСЯРЕСУРСОВ В РАЗВИТИИ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

**А.М.Тагиев**
Мингячевирский государственный университет

***Резюме:*** *Статья посвящена вопросам эффективного использования экономических ресурсов, которые являются одной из актуальных проблем современности и постоянно дефицитны. В первой части статьи дана широкая трактовка понятия ресурсного потенциала и отражена его структура. Во второй части отражены мнения автора об эффективном использовании имеющегося ресурсного потенциала и его значении в развитии народного хозяйства, а также результаты исследования.*

***Ключевые слова:*** *ресурсный потенциал, экономические ресурсы, природные ресурсы, эффективность, национальная экономика, альтернативные ресурсы*

**Elmi redaktor: i.e.d., dos. E.Hüseynova**
**Çapa təqdim edən redaktor: i.f.d., dos. N.Qədimli**
**Daxil olub: 01.02.2023**
**Çapa qəbul edilib: 08.02.2023**